# Respublikanın digər bölgələri də diqqətdən kənarda qalmır



Ölkə başçısının Şamaxı və İsmayıllı rayonlarına səfəri barədə bizimlə fikirlərini bölüşən ssenarist, şair İkram Əliyev bildirdi ki, ümumiyyətlə, ölkəmizdə insanların həyat şəraitinin, rifahının yaxşılaşdırılması istiqamətində görülən işlər səngimir. Müsahibim dedi:

– Biz hər zaman bunun şahidi olmuşuq. Qlobal miqyaslı maliyyə böhranı, dünyanı ağuşuna alan COVID-19 pandemiyası dövründə də ölkə ərazisində yenidənqurma işləri intensiv davam edir, yeni obyektlər, təhsil ocaqları, fabrik-zavodlar istismara verilir. Bu da, öz növbəsində, ölkəmizin iqtisadi qüdrətindən xəbər verir.

Yeri gəlmişkən, qeyd edim ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müharibənin ardından tez-tez işğaldan azad edilən torpaqlara səfərlərinin şahidi oluruq. Bu dəfə səfərin istiqaməti Şamaxı və İsmayıllı rayonları idi.

Ölkəmizin başçısı səfər çərçivəsində Pirsaat çayının sahilində yerləşən Pirsaat Baba məscid-ziyarətgah kompleksinin, eləcə də İsmayıllı rayonunun Lahıc qəsəbəsindəki Bədöyün məscidinin bərpa-təmir işləri ilə tanış olub. Hər iki məscidin bir neçə əsrlik tarixi var. Şamaxıda baş verən zəlzələdən sonra Pirsaat məscidinin divarlarında çatlar əmələ gəlmişdi. 2020-ci ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ziyarətgahda yenidənqurma işlərinə, eləcə də yeni məscid binasının tikintisinə başlanmışdı. Qeyd edək ki, məsciddə ibadətlə yanaşı, mərasim zalları da istifadəyə verilib.

***Vətən müharibəsində qazandığımız qələbədən sonra ölkəmizdə əsas diqqət işğaldan azad edilən torpaqlarımızda aparılan bərpa-quruculuq işlərinə yönəlib. Dövlətimizin başçısının dediyi kimi, respublika ərazisində mövcud olan resursların böyük əksəriyyəti Qarabağın bərpası üçün səfərbər edilib. İstər pandemiya şəraitinin yaratdığı çətinliklərə, istərsə də iqtisadi potensialın Qarabağa yönəlməsinə baxmayaraq, ölkənin digər bölgələrində də abadlıq-quruculuq işləri davam etdirilir. Əlbəttə, bu, ondan xəbər verir ki, təkcə işğaldan azad edilən torpaqların deyil, respublikamızın digər bölgələrinin də müasirləşdirilməsi, yenidən qurulması, bu ərazilərdə yeni iş yerlərinin açılması dövlətimizin daxili siyasətinin önəmli istiqamətlərindən biridir.***

Bədöyün məscidinin tikinti-bərpa işləri də eyni minvalla başlanmışdı. Belə ki, 2019-cu ildə Mehriban xanım Əliyeva Lahıcda olarkən sakinlər məscidin bərpası üçün müraciət etmişdilər. Daha sonra, Birinci vitse-prezident məscidin vəziyyəti ilə tanış olmuş, tikinti işlərinin başlamasına dair tapşırıq vermişdi. Burada görülən işlər zamanı məscidin tarixi orijinallığının qorunmasına xüsusi diqqət yetirilmişdir.

Daha əvvəl qeyd edildiyi kimi, səfər zamanı ölkəmizin başçısı bir çox müəssisənin açılışında iştirak etdi, yenidənqurma işləri ilə tanış oldu. Onlardan biri də Şamaxı rayonunda yerləşən akademik Heydər Hüseynov adına Çarhan kənd tam orta məktəbinin yeni binası idi. Ölkəmizin başçısı məktəbin yeni binasında yaradılan şəraitlə tanış olarkən bildirildi ki, bu təhsil ocağı 420 şagirdin təhsil alması üçün nəzərdə tutulub. Məktəb kompleksi 5 korpusdan ibarətdir. Ümumiyyətlə, şagirdlərin burada daha yaxşı təhsil alması üçün bütün lazımi şərait yaradılıb.

Prezident və birinci xanım Mehriban Əliyeva, həmçinin Şamaxı Üzüm Tingçilik Mərkəzinin açılışında iştirak ediblər. Qeyd edilib ki, mərkəzin illik istehsal gücü 1 milyon ədəd ting təşkil edir ki, burada istehsal olunan tinglər təkcə qonşu ölkələrə deyil, həm də Mərkəzi Asiya ölkələrinə ixrac ediləcək.

Dövlət başçısı daha sonra Şamaxı şəhər Gənclər Parkında yaradılan şəraitlə tanış olub. Xatırladaq ki, Şamaxı Gənclər Parkı ölkəmizin başçısının 2020-ci ilin “Könüllülər ili” elan edilməsi ilə bağlı imzaladığı sərəncam çərçivəsində yaradılıb. Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimayi Birliyi tərəfindən yaradılan bu parkda gənclərin asudə vaxtlarını daha səmərəli keçirmələri üçün bütün imkanlar mövcuddur.

Ümumiyyətlə, Şamaxıda baş verən zəlzələdən sonra Prezident İlham Əliyevin tapşırığı ilə rayonda əhatəli təmir-bərpa işləri həyata keçirilməyə başlanmışdır. Qeyd edək ki, dövlət hesabına icra edilən layihə çərçivəsində 4 minə yaxın ev yenilənib.

Səfər çərçivəsində ölkə başçısına məlumat verilib ki, şəhərin daxili küçələrində də yenidənqurma işləri davam etdirilir. Bu layihə əhalinin şəhər daxilində gediş-gəlişini asanlaşdırmaq, yol infrastrukturunu inkişaf etdirmək məqsədilə nəzərdə tutulub.

Bütün bunlar onu göstərir ki, ölkəmizin iqtisadi qüdrəti işğaldan azad edilən ərazilərimizlə yanaşı, respublikanın digər bölgələrində də bərpa-quruculuq işləri görməyə imkan verir. Dövlət başçısının da dediyi kimi, Azərbaycan iqtisadiyyatı müstəqil və heç bir kənar qüvvədən asılılığı olmayan iqtisadiyyatdır. Bu, həm Vətən savaşındakı Qələbəmizi, həm də qələbədən sonrakı bərpa işlərini təmin edən ən önəmli amillərdən biridir.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV, “Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 3 noyabr.- S.5.